

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 140 (23.552)

26 avqust 2020-ci il, çərşənbə

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 25-də Rusiya Federasiyasının Müdafiə naziri Sergey Şoyqunun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Qonaqları salamlayan Prezident İlham Əliyev vurğulayıb ki, Bakıda Ordu Oyunlarının bir hissəsi olan "Dəniz Kuboku" yarışı açılır, Azərbaycan ənənəvi olaraq Ordu Oyunlarında iştirak edir və ənənəvi olaraq "Dəniz Kuboku" yarışlarına ev sahibliyi edir. Ölkə başçısı bu yarışların bundan sonra da iştirakçı ölkələr arasında əməkdaşlığın möhkəmləndirilməsinə xidmət edəcəyinə əminliyini ifadə edib.

Dövlətimizin başçısı vurğulayıb ki, Rusiyanın təşəbbüsü ilə keçirilən Ordu Oyunlarınında Azərbaycan tankçılarının tank biatlonunda iştirak etməsi görüşmək və hərbi sahədə əməkdaşlığın perspektivi ilə bağlı məsələlər barədə fikir mübadiləsi aparmaq üçün yaxşı imkandır.

Rusiyanın Müdafiə naziri Sergey Şoyqu Azərbaycana səfərinin fikir mübadiləsi aparmaq və regional təhlükəsizlik məsələlərini, həmçinin hərbi və hərbi-texniki əməkdaşlıqla bağlı məsələləri müzakirə etmək üçün yaxşı fürsət olduğunu bildirib.

Müdafiə naziri Azərbaycan heyətinin – tank biatlonunun yaxşı start götürdüyünü, Azərbaycan komandasının qalan yarışlarda da kifayət qədər yaxşı çıxış etdiyini bildirib, komandaya uğurlar arzu edib. Sergey Şoyqu ənənəvi olaraq Xəzərdə keçirilən yarışların yüksək səviyyədə təşkilinə, heyətlə görüşməyə vaxt və imkan tapdığına görə Azərbaycan Respublikasının Prezidentinə minnətdarlığını bildirib.

## 2020-ci ilin yanvar-iyul aylarında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı

Muxtar respublikada 2020-ci ilin yanvar-iyul aylarında 1 milyard 574 milyon 282 min 900 manatlıq ümumi daxili məhsul istehsal olunmuşdur ki, bu da 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 0,6 faiz çoxdur.

Hər bir nəfərə düşən ümumi daxili məhsulun həcmi 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 1,1 faiz artaraq 3421 manat olmuşdur.

* * *

Muxtar respublikada yaranan ümumi daxili məhsulun tərkibində ilk yeri sənaye sahəsi tutur. Sənaye üzrə 648 milyon 741 min 200 manat dəyərində məhsul istehsal edilmişdir ki, bu da 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 0,9 faiz çoxdur.

* * *

Vəsait qoyuluşları çərçivəsində 2020-ci ilin bəhs olunan dövrü ərzində muxtar respublikada bütün maliyyə mənbələrindən əsas kapitala 594 milyon 960 min 600 manat vəsait yönəldilmişdir ki, bu da bir il öncəki göstəricidən 1,3 faiz çoxdur. Əsas kapitala yönəldilmiş vəsaitin 568 milyon 785 min 800 manatı və ya 95,6 faizi tikinti-quraşdırma işlərinin payına düşmüşdür.

* * *

2020-ci ilin yanvar-iyul aylarında



256 milyon 287 min 600 manatlıq kənd təsərrüfatı məhsulları istehsal olunmuşdur ki, bu da 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 3,5 faiz çoxdur. Bu dövr ərzində diri çəkidə ət istehsalı 13673 ton, süd istehsalı 61361 ton olmuşdur. 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı 2,4 faiz, süd istehsalı isə 1,7 faiz artmışdır.

* * *

Bəhs olunan dövrdə informasiya və rabitə xidmətlərinin dəyəri 32 milyon 216 min 700 manat olmuşdur ki, bu da 2019-cu ilin müvafiq dövründəki xidmətlərin dəyəri ilə müqayisədə 3,2 faiz çoxdur. Bu dövr ərzində mobil rabitə xidmətinin dəyəri 25 milyon 657 min 400 manat təşkil etmiş və bir il öncəyə nisbətdə 1,8 faiz artmışdır.

* * *

Təsərrüfat subyektlərinin kredit resurslarına çıxış imkanları davamlı olaraq yaxşılaşdırılmış, 2020-ci ilin yanvar-iyul aylarında muxtar respublikanın bank və kredit təşkilatları tərəfindən hüquqi və fiziki şəxslərə 100 milyon 40 min 100 manat məbləğində kreditlər verilmişdir. Bu, bir il öncəki göstəricidən 1,6 dəfə çoxdur. Verilmiş kreditlərin 10 milyon 899 min 400 manatı və yaxud 10,9 faizi qısamüddətli, 89 milyon 140 min 700 manatı və yaxud 89,1 faizi uzunmüddətli kreditlər olmuşdur.

* * *

Sahibkarlıq fəaliyyətinin davamlı olaraq dəstəklənməsi, yeni istehsal müəssisələrinin yaradılması nəticəsində muxtar respublikada 384 növdə məhsul istehsal olunur. Bunun 127 növü ərzaq, 257 növü isə qeyri-ərzaq məhsullarıdır. Hazırda əhalinin 108-i ərzaq, 242-si qeyri-ərzaq olmaqla, 350 növdə məhsula olan tələbatı tamamilə yerli imkanlar hesabına ödənilir.

* * *

Muxtar respublikada bank sektorunun normal fəaliyyəti təmin edilmişdir. 1 avqust 2020-ci il tarixə muxtar respublikanın banklarında açılmış bank hesablarının sayı 89024-ə çatmışdır ki, bunun da 77836-sı və ya 87,4 faizi aktiv hesablardır. Bəhs olunan dövrdə açılmış 22598 bank hesabının 22584-ü aktiv hesablar olmuşdur.

Muxtar respublikada quraşdırılmış POS-terminalların sayı 1 avqust 2020-ci il tarixə 1324-ə çatmışdır.

* * *

Muxtar respublikada iqtisadiyyatın dinamik inkişafı xarici ticarət əlaqələrinin genişlənməsinə müsbət şərait yaratmış, 2020-ci ilin ilk 7 ayı ərzində 256 milyon 878 min 100 ABŞ dolları dəyərində xarici ticarət dövriyyəsi qeydə alınmışdır. İxracın dəyəri 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə artaraq 223 milyon 138 min 900 ABŞ dolları təşkil etmiş, 189 milyon 399 min 700 ABŞ dolları dəyərində müsbət saldo yaranmışdır.

* * *

2020-ci ilin yanvar-iyun aylarında muxtar respublika iqtisadiyyatında bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı 525 manata çatdırılmışdır ki, bu da 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 16,8 faiz çoxdur.

* * *

1 iyul 2020-ci il tarixə muxtar respublika əhalisinin sayı bir il öncəyə nisbətdə 3024 nəfər artaraq 460 min 608 nəfər olmuşdur.

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***

## Payız-qış mövsümünə hazırlıqla bağlı görülən işlər müzakirə edilib, qarşıda duran vəzifələr müəyyənləşdirilib



***Naxçıvan Şəhər İcra Hakimiyyətində 2020-2021-ci illərin payız-qış mövsümünə hazırlıqla əlaqədar keçirilən müşavirəni İcra Hakimiyyətinin başçısı Mirsənani Seyidov açıb.***

Sonra Naxçıvan Şəhər Qaz İstismarı İdarəsinin rəisi Mahmud Əbilsoy, İstilik Təsərrüfatı İdarəsinin rəisi Nəsimi Novruzov, Elektrik Şəbəkəsinin rəisi Ələkbər Kərimov və digər təşkilatların nümayəndələri payız-qış mövsümünə hazırlığın vəziyyəti, görülmüş işlər və qarşıda duran vəzifələrlə əlaqədar aidiyyəti üzrə məlumatlar veriblər.

Müşavirədə Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Mirsənani Seyidov çıxış edərək bildirib ki, növbəti payız-qış mövsümünə hazırlıqla əlaqədar şəhərdə yerləşən mərkəzləşdirilmiş və fərdi qazanxanalara fasiləsiz iş rejiminin təmin olunması məqsədilə texniki baxış keçirilib, elektrik, təbii qaz, içməli su və istilik xətləri təmir olunub. Eyni zamanda qazanxanaların istiliklə təmin etdikləri inzibati və yaşayış binalarını birləşdirən magistral xətlərə və binaların zirzəmilərində olan paylayıcı istilik xətlərinə də baxış keçirilib, 21 nömrəli mərkəzləşdirilmiş qazanxananın istiliklə təmin etdiyi Zərəş Həmzəyeva küçəsi 1 və 2 nömrəli, "İstiqlal" küçəsi 105, 111, 113 nömrəli, Şədlinski məhəlləsi 1 və 2 nömrəli yaşayış binalarını birləşdirən istismara yararsız dəmir boru xətləri plastik boru xətləri ilə əvəz edilib.

Qeyd olunub ki, əhalinin fasiləsiz elektrik enerjisi ilə təmin olunması üçün də müvafiq tədbirlər görülüb, 10 və 0,4 kilovoltluq elektrik hava xətlərində və paylayıcı güc transformator yarımstansiyalarında cari və əsaslı təmir işləri aparılıb, yeni paylayıcı güc transformator yarımstansiyaları quraşdırılıb. Aparılan abadlıq-quruculuq işləri zamanı "İstiqlal" küçəsində bir ədəd binatipli gücləri 630 kilovat-amper və 250 kilovat-amper olan transformator yarımstansiyası, Xətai məhəlləsində 1 ədəd gücü 250 kilovat-amper olan qapalı yarımstansiya quraşdırılıb. Elektrik hava xətlərinin yeraltı kabellərlə əvəz olunması istiqamətində də işlər davam etdirilib, Xətai məhəlləsində və "İstiqlal" küçəsində 16 min 100 metr 10 və 0,4 kilovoltluq elektrik hava xətti yeraltı kabellə əvəz olunub. Qazanxanaların elektrik enerjisi ilə fasiləsiz təchizatı üçün 50, 100, 150 kilovat gücündə 3 daşına bilən generator texniki baxışdan keçirilərək hazır vəziyyətə gətirilib.

Vurğulanıb ki, 2020-ci ilin 7 ayı ərzində Naxçıvan şəhərinə 64 milyon 993 min kilovat-saat elektrik enerjisi ötürülüb, 5 milyon 416 min 631 manat vəsait toplanıb. Verilmiş elektrik enerjisinin 27 milyon 104 min kilovat-saatı əhaliyə aid olub. Ayrı-ayrı təşkilatların fəaliyyətlərində yol verilən nöqsanlara da toxunan Mirsənani Seyidov qeyd edib ki, tabeli müəssisə və təşkilatlar 2020-2021-ci illərin payız-qış mövsümünə hazırlıqla bağlı keçirilən müşavirədə Ali Məclis Sədrinin qarşıya qoyduğu tapşırıqları diqqətdə saxlamalı, müvafiq tədbirlər həyata keçirilməlidir.

Naxçıvan Neft və Qaz Məhsulları Təminatı Müəssisəsində keçirilən yığıncaqda müəssisənin direktoru Behruz Əzimov çıxış edərək bildirib ki, müəssisə Bakı Neft Bazası ilə bağlanmış müqaviləyə əsasən il ərzində 40 min ton "A-92" avtobenzinin, 120 min ton dizel yanacağının, 22 min ton bitumun, 11 min ton mazutun, 1200 ton müxtəlif növ yağların muxtar respublikaya gətirilməsi nəzərdə tutulub. Alınan yanacaq Bakı şəhərindən İran İslam Respublikası ərazisindən keçməklə, Bakı-Gürcüstan-Türkiyə yolu ilə Naxçıvan Muxtar Respublikasına gətirilir.



Diqqətə çatdırılıb ki, 2020-ci ilin 7 ayı ərzində 17 min 765,6 ton "A-92" avtobenzini, 22 min 557,4 ton dizel yanacağı, 7039,5 ton bitum, 7629,7 ton mazut, 87 ton müxtəlif növ yağlar muxtar respublikaya gətirilib. Müəssisə 2020-ci ilin 7 ayında ümumi dövriyyəsi 38 milyon 771 min manat olan 54 min 928,7 ton müxtəlif növ neft məhsulları satıb ki, bu da 17 min 609 ton avtobenzin, 24 min 930 ton dizel yanacağı, 7039,5 ton bitum, 5263,2 ton mazut, 87 ton müxtəlif növ yağlardan ibarətdir.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikasının istilik sistemi olmayan təhsil, səhiyyə, mədəniyyət və turizm müəssisələrinə 2020-2021-ci illərin payız-qış mövsümü üçün tələb olunan 51 min 360 litr dizel yanacağının yerlərdə təhvil verilməsi üçün əlavə ehtiyat yaradılıb. Həmçinin cari il avqustun 25-nə olan tarixə anbarlarda 3589 ton dizel yanacağı, 2063 ton "A-92" avtobenzini, 3216 ton mazut ehtiyatı olub. Bundan əlavə, mövsümə hazırlıqla bağlı müəssisədəki boru və nasosların, elektrik avadanlıqlarının saz vəziyyətdə olması diqqət mərkəzində saxlanılır və bu istiqamətdə tədbirlər davam etdirilir.

Sonra məruzə ətrafında çıxışlar olub.

**Xəbərlər şöbəsi**

# Payız-qış mövsümünə hazırlıq məsələləri müzakirə olunub



Culfa rayonunda 2020-2021-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə bağlı keçirilən müşavirəni giriş sözü ilə rayon İcra Hakimiyyətinin başçısı Siyam Hacıyev açıb. Bildirib ki, rayon Qaz İstismar İdarəsi texniki baxış keçirərək qaz xətlərindəki və qazpaylayıcı qurğulardakı mövcud nasazlıqların aradan qaldırılması məqsədilə aparılan işləri sürətləndirməlidir. Yeni qaz xətləri çəkilərkən və ya bərpa işləri aparılarkən mövcud standartların tələbləri diqqətdə saxlanılmalıdır.

Kommunal Müəssisələr Kombinatı qazanxanalarda və istilik sistemlərindəki mövcud çatışmazlıqları aradan qaldırmalı, noyabr ayının 1-dək bütün qazanxanalarda qış mövsümünə hazırlıqla bağlı nəzərdə tutulan işləri başa çatdırmalıdır. Qeyd olunub ki, Mənzil İstismar Sahəsi ictimai yaşayış binalarının zirzəmilərindəki istilik xətlərinə texniki baxış keçirməli, binaların elektrik enerjisi, təbii qaz təchizatı sahəsində mövcud olan nöqsanların vaxtında aradan qaldırılması üçün tədbirlər görməlidir.

Vurğulanıb ki, Meliorasiya və Su Təsərrüfatı İdarəsi aidiyyəti qurumlarla birlikdə içməli su və kanalizasiya sistemlərinin, kaptajların, arxların, kanalların qışa hazırlığı ilə bağlı tədbirlər görməlidir. Payız suvarma mövsümü bitdikdən sonra hidrotexniki qurğular növbəti ilə hazırlanmalı, su bəndləri vaxtında bağlanmalı və anbarlarda su ehtiyatı yaradılmalıdır.

Bildirilib ki, payız-qış mövsümünə hazırlıqla əlaqədar dəmiryol nəqliyyatında hərəkətin təhlükəsizliyi üçün zəruri tədbirlər görülməlidir. İstismarda olan elektrovoz və teplovozlarda lazımi təmir işlərinin aparılmasına, xəttə çıxacaq vaqonların istilik sistemlərinin yoxlanılmasına və işlək vəziyyətdə saxlanılmasına diqqət artırılmalıdır. Dəmiryol stansiyasının vağzal binasındakı fərdi qazanxanaya və istilik sistemlərinə texniki baxış keçirilərək qış mövsümünə hazırlanmalıdır.

Rayonda dayanıqlı rabitənin təmin olunması üçün mövcud rabitə dayaqlarının və xətlərinin standartlara uyğunlaşdırılması istiqamətində görülən tədbirlər davam etdirilməlidir.

Müşavirə məruzə ətrafında çıxışlarla davam edib.

***Şahbuz Rayon İcra Hakimiyyətində payız-qış mövsümünə hazırlıqla bağlı müşavirə keçirilib.***



Müşavirədə Şahbuz Rayon İcra Hakimiyyətinin başçısı Rəfael Babayev çıxış edərək bildirib ki, rayonda əhalinin qış aylarında rahatlığının təmin edilməsi üçün lazımi şərait yaradılıb. Şahbuz şəhərində fəaliyyət göstərən 49 idarə, təşkilat və müəssisənin yerləşdiyi inzibati binalardan 44-də müasir istilik sistemi quraşdırılıb. Həmçinin şəhər, qəsəbə və kəndlərdə, ümumilikdə, 23 yaşayış məntəqəsində fəaliyyət göstərən təşkilatların yerləşdikləri binalar müasir istilik sistemi ilə təmin edilib. Rayonun 23 tam orta məktəb, 3 məktəbdənkənar təhsil müəssisəsi, 23 səhiyyə, 55 mədəniyyət müəssisəsi müasir istilik sistemi ilə qızdırılacaq.

Qeyd edilib ki, payız-qış mövsümündə nəqliyyatın intensiv hərəkətini təmin etmək məqsədilə avtomobil yollarının sıradan çıxmış hissələrinə asfalt verilərək bərpa olunub, kənddaxili yollarda hamarlama işləri həyata keçirilib. Şahbuz-Batabat magistral avtomobil yolunda cari təmir işləri aparılıb, 350 siqnal dirəyi, 930 siqnal dirəyinin lentası, 67 yol nişanı yenisi ilə əvəz olunub, 7 körpüdə 145 metr məhəccər təmir edilib.

İcra başçısı bildirib ki, rayon əhalisinin elektrik enerjisinə olan tələbatını yaxşılaşdırmaq məqsədilə 2020-ci ilin ötən dövrü ərzində 4927 abonentə xidmət göstərilib, xətlərə baxış keçirilib, 35 kilovoltluq hava verilişi xətti çəkilib, 35-nin isə çəkilişinin oktyabr ayının sonunadək başa çatdırılması nəzərdə tutulur.

Abadlıq-quruculuq tədbirlərinin keçirildiyi ərazilərdə, eləcə də ayrı-ayrı yaşayış məntəqələrində lazımi yerlərdə təbii qaz xətləri yenidən işlənilib, 13 yeni tikilmiş fərdi evə, 2 sosial obyektə təbii qaz xətti çəkilib, istismara yararsız 17 qaz sayğacı yenisi ilə əvəz edilib.

Sonra çıxışlar olub.

* * *

Naxçıvan Muxtar Respublikası Qaz İstismar Xidmətində keçirilən iclasda xidmətin rəisi Ramin İsmayılov məruzə ilə çıxış edib. Bildirib ki, payız-qış mövsümündə təbii qaza olan tələbatın artması ilə əlaqədar sutka ərzində qaz nəqlinin texnoloji rejimi və qaz sərfinin qeydiyyatı nəzarətdə saxlanılır. Qazpaylayıcı stansiyalarda avadanlıqlara texniki xidmət işləri qrafik üzrə təşkil edilib. Təbii qazın mexaniki qarışıqlardan təmizlənməsi üçün tətbiq olunan qaztəmizləyici seperator və süzgəclərə, texnologiyaya uyğun qurulmuş



bağlayıcı avadanlıqlara, təzyiq tənzimləyicilərə, qaz sərfinin hesablanması və alqı-satqısı işlərinin reallaşdırılması üçün qaz sərfini ölçən cihazlara və bütün texnoloji avadanlıqlara zəruri texniki xidmət göstərilib. Təbii qaz nəqlinin soyuq hava şəraitinə uyğun texnoloji rejimdə həyata keçirilməsi təmin edilib.

Qeyd olunub ki, magistral qaz kəmərləri qaz nəqli və təchizatı sisteminin ən əhəmiyyətli qovşağıdır. Yeraltı yüksək və ortatəzyiqli magistral qaz kəmərləri üzərində istismar olunan elektrokimyəvi mühafizə qurğularına (13 katod stansiyasına, 1 drenaj qurğusuna) nəzarət edilib, ardıcıl olaraq anod yataqları yoxlanılıb, kəmərboyu potensiallar fərqi nəzarətdə saxlanılıb, katod stansiyalarında qidalandırıcı transformatorlara xidmətin göstərilməsi kimi işlər görülüb və bu işlər qrafikə uyğun davam etdirilir. Həmçinin Naxçıvan-Sədərək yüksəktəzyiqli magistral qaz kəmərində təzyiqin artırılması məqsədilə Naxçıvan şəhər qazpaylayıcı stansiyasında yeni qaz kompressor stansiyasının qurulması üçün üçtərəfli müqavilə imzalanıb, kompressor stansiyasına lazımi avadanlıqlar sifariş verilib və stansiyanın ilin sonunadək quraşdırılması nəzərdə tutulur.

Sonra məruzə ətrafında çıxışlar dinlənilib.

**Xəbərlər şöbəsi**

*Dövlət proqramı icra olunur*

# Muxtar respublikada baytarlıq xidməti inkişaf etdirilir

***Müasir dünya ölkələrində baytarlıq işinin yüksək standartlar əsasında qurulması öz aktuallığı ilə seçilən həyati əhəmiyyətli məsələlərdəndir. Çünki baytarlıq xidmətinin düzgün təşkili insanlar və heyvanlar arasında təhlükəli və yoluxucu infeksion xəstəliklərin qarşısının alınması, epizootik sabitliyin təmin edilməsi yolu ilə ərzaq təhlükəsizliyinin təminatında xüsusi rola malikdir. Digər tərəfdən süni mayalanma tədbirlərinin genişləndirilməsi ilə heyvanların cins tərkibinin yaxşılaşdırılması da heyvandarlığın inkişafına səbəb olur.***




Naxçıvan Muxtar Respublikasında baytarlıq xidmətinin inkişafı və bu sahədə maddi-texniki bazanın gücləndirilməsi istiqamətində əhəmiyyətli işlər görülür. Bu işlərin davamında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 17 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş “2020-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında baytarlıq təbabətinin inkişafı üzrə Dövlət Proqramı” mühüm rol oynayır. Baytarlıq sahəsində dövlət tənzimləməsi, dövlət nəzarəti və əlaqələndirmənin həyata keçirilməsi məqsədilə qəbul edilən proqramda 25 bənddən ibarət tapşırıqlar nəzərdə tutulmuşdur. İkinci rübdə heyvanların cins tərkibinin yaxşılaşdırılması, məhsuldarlığın yüksəldilməsi, təbii yolla keçən xəstəliklərin qarşısının alınması məqsədilə süni mayalanma tədbirlərinin əhatə dairəsinin genişləndirilməsi ilə bağlı tapşırığın icrası diqqət mərkəzində olmuşdur. Mayın 12-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Süni Mayalanma Mərkəzində görülən işlərlə maraqlanmış, yaradılan şəraitdən lazımi səviyyədə istifadə olunacağına və mərkəzin inkişafının təmin ediləcəyinə əminliyini bildirmişdir. Yeni yaradılan mərkəz muxtar respublikada süni mayalanma işinin genişlənməsinə, mal-qaranın cins tərkibinin yaxşılaşdırılmasına və heyvandarlığın inkişafına təkan verəcəkdir. Bu da ərzaq təhlükəsizliyinin təmin olunmasında mühüm addımdır. Ümumilikdə, muxtar respublikada ikinci rübdə 3 min 989 inək və düyədə süni mayalanma işləri aparılmış, keçən ildən mayalanmış 1789 buzov doğulmuşdur. Eyni zamanda bu sahədə maarifləndirmə işləri davam etdirilmiş, 1 məqalə dərc olunmuş, 2 televiziya, 1 radio verilişi və 1 buklet hazırlanmışdır.

Dövlət proqramında səyyar süni mayalanma xidmətinin göstərilməsi ilə bağlı tapşırıq müəyyən olunmuşdur. Qeyd edilən tapşırığın müasir tələblər səviyyəsində icrası üçün Dövlət Baytarlıq Xidmətinin maddi-texniki bazasının gücləndirilməsi və süni mayalanma texniklərinin müvafiq vasitələrlə təmin edilməsi mühüm rol oynayır. İyunun 30-da Dövlət Baytarlıq Xidmətində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin iştirakı ilə baytarlıq təbabəti sahəsində görülən işlər və qarşıda duran vəzifələr barədə səyyar müşavirə keçirilmişdir. Müşavirədə xidmətə 1 “Fiat” markalı avtomobil, 5 yedəkli motosiklet və 5 dəst süni mayalanma ləvazimatı təqdim edilmiş, öz fəaliyyəti ilə fərqlənən bir qrup əməkdaşa hədiyyələr verilmişdir. Ali Məclisin Sədri demişdir: ***“Süni Mayalanma Mərkəzinin yaradılması, avadanlıqlarla təminat onu deməyə əsas verir ki, süni mayalanma işinin həyata keçirilməsi, eləcə də baytarlıq təbabətinin inkişafı üçün lazım olan bütün şərait var. Baytarlıq təbabəti işçiləri bundan sonra səmərəli fəaliyyət göstərməli, muxtar respublikada epizootik vəziyyət daim sabit saxlanmalı, heyvandarlıqda cins tərkibinin yaxşılaşdırılması tədbirləri davam etdirilməli, Dövlət proqramında nəzərdə tutulan vəzifələr vaxtında icra olunmalıdır”.***

Muxtar respublikada baytarlıq sahəsində mütəxəssis hazırlığı xüsusi diqqət yetirilən məsələlərdəndir. Çünki ixtisaslı kadr hazırlığının təmin edilməsi bütün sahələrdə inkişafı təmin edən başlıca amildir. Bu istiqamətdə ikinci rübdə Naxçıvan Dövlət Universiteti və Naxçıvan Dövlət Texniki Kollecində Baytarlıq təbabəti ixtisası üzrə təhsil alan tələbələrlə onlayn dərslər davam etdirilmiş, eləcə də Dövlət Baytarlıq





Xidmətinin əməkdaşları tərəfindən videogörüşlər təşkil olunmuşdur.

Əvvəlcədən proqnozlaşdırılaraq tərtib edilən tədbirlər planına uyğun peyvəndləmə işlərinin aparılması heyvanmənşəli xəstəliklərin qarşısının alınmasında mühüm rol oynayır. Dövlət proqramında da bu məqsədlə profilaktik tədbirlərin görülməsi, vaksinasiya və laborator analizlərin vaxtında aparılması ilə bağlı tapşırıq nəzərdə tutulmuşdur. İkinci rübdə epizootik tədbirlər planına uyğun olaraq qarayara xəstəliyinə qarşı 10 min 635 baş iribuynuzlu, 341 min 390 baş xırdabuynuzlu, 366 baş təkdırnaqlı, həmçinin bradzot xəstəliyinə qarşı 77 min 189 baş xırdabuynuzlu, dabaq xəstəliyinə qarşı 16 min 665 baş iribuynuzlu, 467 min 119 baş xırdabuynuzluda, emkar xəstəliyinə qarşı 59 min 520 baş iribuynuzlu, bruselyoz xəstəliyinə qarşı 216 min 135 baş xırdabuynuzlu, dermatofitoz xəstəliyinə qarşı 9 min 110 baş iribuynuzlu, nodulyar dermatit xəstəliyinə qarşı 276 baş iribuynuzlu, pasterellyoz xəstəliyinə qarşı 88 min 70 baş iribuynuzlu heyvanlarda, 24 min 817 baş quşlarda, nyukasl xəstəliyinə qarşı 285 min 203 baş quş, 199 min 409 baş cücələrdə, eləcə də quduzluğa qarşı peyvəndləmə aparılmışdır. Eyni zamanda bu dövrdə baytarlıq laboratoriyalarında bruselyoz xəstəliyinə görə 3 min 831 baş iribuynuzlu, 26 min 836 baş xırdabuynuzlu, 9 min 950 baş qoçdan qan və 1878 patoloji heyvan nümunələri götürülərək yoxlanılmış, heç bir xəstəlik aşkarlanmamışdır.

Həyata keçirilən profilaktik tədbirlər sırasında ekoloji təmizliyə nəzarətin təşkili və dezinfeksiya işlərinin vaxtında aparılması da xüsusi əhəmiyyət kəsb edir. Dövlət proqramının icrasına uyğun olaraq yaylaqlarda bu istiqamətdə işlərin aparılması diqqət mərkəzində olmuşdur. Ümumilikdə, ikinci rübdə muxtar respublikada 1534 obyekt üzrə 328 min 687 kvadratmetr sahədə dezinfeksiya tədbirləri həyata keçirilmişdir.

Proqramda gömrük-keçid məntəqələrində baytar karantin nəzarəti tədbirlərinin aparılması ilə bağlı tapşırıq müəyyən edilmişdir. Tapşırığın icrası istiqamətində muxtar respublikaya idxal edilən bütün növ heyvanlar üçün xarici baytarlıq sertifikatı tələb olunmuş və karantinə alınması məqsədilə aidiyyəti rayon baytarlıq idarələrinə əvvəlcədən məlumat verilmişdir. Həmçinin Ümumdünya Heyvan Sağlamlığı Təşkilatı tərəfindən xarici dövlətlərdə qeydə alınmış xəstəliklərin muxtar respublika ərazisində yayılmasının qarşısının alınması məqsədilə həmin ölkələrdən heyvan və heyvanmənşəli malların idxalı məhdudlaşdırılmışdır.

Heyvandarlığın inkişafında sağlam mühitin formalaşdırılması üçün baytarlıq preparatlarının, yemlərin, yem əlavələrinin, biostimulyatorların, hormonların təhlükəsizliyinə və keyfiyyətinə nəzarətin təşkili, maarifləndirici tədbirlərin keçirilməsi xüsusi əhəmiyyətə malikdir. Bu məqsədlə aprel-iyun aylarında muxtar respublikada fəaliyyət göstərən baytarlıq əczaxanalarında 5 reyd keçirilmişdir. Eyni zamanda xəstəliklər zamanı ənənəvi müalicələrə üstünlük verilməsi üçün sahibkarlarla maarifləndirici söhbətlər aparılmışdır. Bu sahədə dərman bitkilərinin əhəmiyyəti barədə 2, heyvandarlıqda sığorta işinin təşkili ilə bağlı 1 maarifləndirici buklet hazırlanmışdır. Arıçı sahibkarların arı xəstəliklərinə qarşı maarifləndirilməsi üçün 8 fərdi görüş keçirilmişdir. Eləcə də heyvanların epizootik vəziyyəti araşdırılaraq sahibkarlara lazımi köməklik göstərilməsi məqsədilə Culfa rayonunun Dəmirli yaylağında səyyar baytarlıq xidməti təşkil edilmişdir.

*“2020-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında baytarlıq təbabətinin inkişafı üzrə Dövlət Proqramı”nın icrasına uyğun olaraq yaradılan şəraitdən səmərəli istifadə olunması və proqramda nəzərdə tutulan tədbirlərin vaxtında həyata keçirilməsi keyfiyyətli və təhlükəsiz heyvandarlıq məhsullarının istehsal olunması üçün yeni imkanlar yaradacaqdır.*

**“Şərq qapısı”**

## “Baba Nemətullah Naxçıvani: həyatı, elmi şəxsiyyəti və əsərləri” kitabının təqdimatı olub

AMEA Naxçıvan Bölməsində keçirilən təqdimat mərasimində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Surə Seyid çıxış edərək bildirib ki, dünyanın tanınmış İslam alimlərindən biri olan Nemətullah Naxçıvani ilə bağlı ciddi elmi araşdırmaların aparılmasının, onun irsinin öyrənilib tədqiq edilməsinin Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 29 oktyabr tarixli Sərəncamı ilə əsası qoyulub.








Sərəncamın icrası ilə əlaqədar AMEA Naxçıvan Bölməsində Nemətullah Naxçıvani irsinin öyrənilməsi üçün 7 nəfərdən ibarət tədqiqat qrupu yaradılıb, 2019-cu ildə Türkiyə Respublikasının Konya şəhərinə tədqiqatçı-mütəxəssislər göndərilib. Səfər çərçivəsində “Naxçıvandan Konyaya bir körpü: Nemətullah Naxçıvani” mövzusunda, Naxçıvanda isə “Görkəmli Azərbaycan mütəfəkkiri: Nemətullah Naxçıvani” mövzusunda beynəlxalq konfranslar keçirilib, “Görkəmli Azərbaycan mütəfəkkiri Nemətullah Naxçıvani” adlı beynəlxalq konfransın materialları” kitab şəklində nəşr edilib. AMEA Naxçıvan Bölməsinin hazırladığı “Nemətullah Naxçıvani: taleyi və sənəti” adlı kitab, həmçinin alimin türk dilindən tərcümə edilən “Əl-Fəvatih-ül-İlahiyyə-vəl-Məfatih-ül-Qeybiyyə” (“Quran”ın kəlmə və hikmətlərini açıqlayan Qeybin açarı və ilahi fəthi”) adlı 3 cildlik təfsiri Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun dəstəyi ilə nəşr olunub. Naxçıvan Dövlət Televiziya və Radio Verilişləri Komitəsi tərəfindən “Təfsir alimi Nemətullah Naxçıvani” sənədli filmi hazırlanıb, qəzet materialları verilib, keçirilən tədbirlər işıqlandırılıb.

Diqqətə çatdırılıb ki, “Baba Nemətullah Naxçıvani: həyatı, elmi şəxsiyyəti və əsərləri” kitabında görkəmli şəxsiyyətin yaşadığı dövrdə siyasi və elmi vəziyyət elmi təhlil süzgəcindən keçirilib. Professor Yaşar Kurt tədqiqat əsərində Nemətullah Naxçıvaninin bütün əsərlərindən bəhs edib, onlar haqqında ümumi məlumat verməklə, əlyazma nüsxələrini oxuculara təqdim edib. Monoqrafiyanın ən maraqdoğuran məqamlarından biri “Qurani-Kərim”in təfsir metodlarının elmi şərhidir. Nemətullah Naxçıvaninin “Quran”ın təfsirində qarışıq metoda üstünlük verməsi, özünəməxsus yazı üslubu seçməsi onu digər təfsirçilərdən fərqləndirib, təfsir elminə yeni ruh, yeni nəfəs gətirib. “Nemətullah Naxçıvaninin təfsirində təsəvvüfi fikirlər” adlanan üçüncü fəsil bütünlükdə İslam dininin əsasını təşkil edən namaz, oruc, həcc, zəkat haqqında elmi şərhləri, şəriət qanunları, tövhid, vəhdətil vücud və vacibül vücud anlayışları və ümumilikdə, alimin fəlsəfəsinin əsasını təşkil edən kamil insan anlayışı və onu formalaşdıran cəhətlərin şərhindən bəhs edir.

Surə Seyid kitabın hazırlanmasında xüsusi əməyi olan Türkiyənin Samsun 19 Mayıs Universitetinin professoru Yaşar Kurta təşəkkürünü bildirib və elmi fəaliyyətində uğurlar arzu edib.

AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev çıxış edərək Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin görkəmli alim Nemətullah Naxçıvani irsinin öyrənilməsi və tədqiqi ilə əlaqədar sərəncamını türk-islam dünyasının elmi və ictimai fikrinin inkişafına böyük töhfələr vermiş, təsəvvüf və təfsir alimi Nemətullah Naxçıvani irsinin öyrənilməsi və tədqiqində mühüm amil kimi qiymətləndirib.

Qeyd olunub ki, həyatının 50 ilə yaxın bir dövrünü Naxçıvanda keçirən, İranda və Türkiyədə yaşayan, təsəvvüf və təfsir sahəsində əsərlərini də burada qələmə alan Nemətullah Naxçıvani “rəbbani elmlərdən sonsuz məlumatı olan, ilahi sirlərə dənizin dərinliklərinə qədər enən” alim və arif bir şəxsiyyət idi. Görkəmli alimin həyatı, fəaliyyəti muxtar respublikamızda da geniş şəkildə tədqiq edilir, öyrənilir. Nemətullah Naxçıvani irsinin araşdırılması istiqamətində atılan mühüm addımlardan biri də “Baba Nemətullah Naxçıvani: həyatı, elmi şəxsiyyəti və əsərləri” kitabının ərsəyə gəlməsidir. Yeni nəşrdən bu nəticəyə gəlmək olur ki, Nemətullah Naxçıvani Orta Anadoluda Nəqşibəndliyin yayılmasında böyük rol oynayıb, şəriət və dünyəvi elmlərdə, xüsusilə təsəvvüfi düşüncəni mənimsəyənlərin ən yuxarı təbəqəsinə xitab edən mövzularda dərin bir vaqifliyə sahib olub, dünyanın dairəvi olduğunu və Günəşin ətrafında fırlandığını deyən Kopernikdən əvvəl bildirib, dünyanın Ay ilə Günəş arasına girməsindən və digər məsələlərdən bəhs edib. Kitab Baba Nemətullah Naxçıvaniyə həsr olunmuş sanballı tədqiqat əsəri kimi nəinki Naxçıvan, eləcə də Azərbaycan elmi, ictimaiyyəti üçün də maraqla qarşılanacaq.

İsmayıl Hacıyev çıxışının sonunda görkəmli filosof, alimin həyat və fəaliyyətinin öyrənilməsi və tədqiq edilməsinə göstərdiyi diqqət və qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbova dərin minnətdarlığını bildirib.

Tədbirdə AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərli, Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Agentliyinin direktoru Vüqar Babayev, Türkiyə Respublikasının Samsun 19 Mayıs Universitetinin İlahiyyat fakültəsinin professoru, kitabın müəllifi Yaşar Kurt (onlayn), AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun şöbə müdiri, filologiya üzrə fəlsəfə doktoru, kitabın tərcüməçisi Elxan Yurdoğlu çıxış ediblər.

Sonda nəşr olunan kitablardan ibarət sərgiyə baxış olub.

Qeyd edək ki, Türkiyə Respublikasının Samsun 19 Mayıs Universitetinin İlahiyyat fakültəsinin professoru Yaşar Kurtun müəllifi olduğu “Baba Nemətullah Naxçıvani: həyatı, elmi şəxsiyyəti və əsərləri” kitabı türk dilindən AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun şöbə müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Elxan Yurdoğlu tərəfindən tərcümə edilib, Bilik Fondunun dəstəyi ilə nəşr olunub. “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyində 100 tirajla işıq üzü görən, 300-dən artıq elmi ədəbiyyatdan bəhrələnərək qələmə alınan kitab giriş, 3 fəsil və nəticədən ibarətdir.

Yeni nəşr Nemətullah Naxçıvani irsinin tədqiqatçıları, tarixçilər, dinşünas alimlər və ali təhsil müəssisələrinin tələbələri, ümumilikdə, Naxçıvanşünaslıq üçün qiymətli mənbə rolunu oynayacaq, gələcəkdə Nemətullah Naxçıvaninin elmi irsinə yeni baxışların və yeni tədqiqatların yaranması ilə nəticələnəcəkdir.

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

## Müharibə veteranına “Hərbi xidmətlərə görə” medalı təqdim edilib





Ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi xəttin uğurla davam etdirilməsinin nəticəsidir ki, bu gün müharibə veteranlarına və şəhid ailələrinə diqqət və qayğı sosial siyasətin əsas istiqaməti kimi müəyyənləşdirilib. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov tərəfindən müharibə iştirakçılarına xüsusi qayğı ilə yanaşılır, onların sosial müdafiəsi gücləndirilir. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 25 iyun tarixli Sərəncamı ilə 1996-cı ildə müdafiə mövqelərimizə düşmən basqınının qarşısını alarkən yaralanaraq sağlamlıq imkanlarını itirmiş Şərur rayonunun Aşağı Daşarx kənd sakini, ehtiyatda olan kiçik çavuş Aftandil Həsənovun “Hərbi xidmətlərə görə” medalı ilə təltif olunması növbəti qayğının ifadəsidir.

“Hərbi xidmətlərə görə” medalının təqdim edildiyi tədbirdə Əlahiddə Ümumqoşun Ordu komandanı, general-polkovnik Kərəm Mustafayev ehtiyatda olan kiçik çavuş Aftandil Həsənovun ərazi bütövlüyümüzün qorunub saxlanılmasında xüsusi xidmətlərinə, öz xidməti vəzifələrini və qarşıya qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiyinə görə təltif edildiyini diqqətə çatdırıb.

Vurğulanıb ki, muxtar respublikada hərbi qulluqçuların, müharibə veteranlarının və şəhid ailələrinin rifah halının yaxşılaşdırılması sahəsində ardıcıl tədbirlər görülür. Bu da Vətən qarşısında borclarını layiqincə yerinə yetirən, vətənpərvərlik nümunəsi göstərən insanların fəaliyyətinə dövlətimizin verdiyi qiymətdir.

“Hərbi xidmətlərə görə” medalı ilə təltif olunan Aftandil Həsənov fəaliyyətinin yüksək qiymətləndirilməsinə görə minnətdarlıq edib və bunu Vətən, xalq qarşısında xidməti olan şəxslərə hərtərəfli dövlət qayğısı kimi dəyərləndirib.

Sonra “Hərbi xidmətlərə görə” medalı Aftandil Həsənova təqdim edilib.

**Nəriman NƏCƏFOV**

## *“Naxçıvan ədəbi mühiti”* monoqrafiyası üzərində işlər sürətləndiriləcək

*AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu ilə birgə hazırladığı “Naxçıvan ədəbi mühiti” monoqrafiyası üzərində işlər davam etdirilir. Naxçıvan Bölməsində sözügedən nəşrin hazırlıq vəziyyəti ilə bağlı iclas keçirilib.*

Tədbirdə layihənin ideya rəhbəri, AMEA-nın birinci vitse-prezidenti, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəyli çıxış edərək Naxçıvan ədəbi mühitini əhatə edən irihəcmli, fundamental bir əsərin çap olunmasının aktuallığını qeyd edib. Bildirib ki, Naxçıvan ədəbi mühitini bütün mərhələləri və xüsusiyyətləri üzrə təfərrüatlı və əhatəli çap etmək Azərbaycan elmi, xüsusilə Naxçıvanşünaslıq qarşısında vacib bir məsələ kimi dayanırdı. Bu məqsədlə belə bir əsərin hazırlanması üçün əhəmiyyətli bir qərara gəlinib və nəşrin hazırlığı üzərində artıq bir neçə müddətdir ki, işlər davam etdirilir. Monoqrafiyanın ərsəyə gəlməsi və işıq üzü görməsi üçün Azərbaycan alimləri, o cümlədən Naxçıvandan olan elm adamları fəallıqla çalışırlar. Vəsait Naxçıvan ədəbi mühiti ilə bağlı ən müxtəlif məsələləri – Naxçıvanda qədim mədəniyyətin izləri, ədəbi mühitin inkişaf mərhələləri, qədim və orta əsrlərdə Naxçıvanda ictimai fikir və ədəbi mühit, yeni və müasir dövrdə, müstəqillik illərində Naxçıvanda ədəbi mühit, ayrı-ayrı görkəmli şəxsiyyətlər və onların həyat və yaradıcılıq yolu və digər məsələləri əhatə edəcəkdir.

İclasda monoqrafiyanın ayrı-ayrı bölmə və mövzularının hazırlıq vəziyyəti ilə bağlı məlumat verilib.

Tədbirdə bölmənin sədri, akademik İsmayıl Hacıyev, İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev və Ədəbiyyatşünaslıq şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Ramiz Qasımov mövzu ilə əlaqədar çıxış edərək öz fikirlərini bildiriblər.

Sonda qarşıda duran vəzifələr istiqamətində işlərin həyata keçirilməsinin sürətləndirilməsi tövsiyə edilib.

***AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti***

## Test imtahanı keçirilib



*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən Fövqəladə Hallar Nazirliyinin Dövlət Tikintidə Təhlükəsizliyə Nəzarət İdarəsində 10 vakant vəzifənin tutulması üçün elan olunmuş müsabiqənin test imtahanı keçirilib.*

İmtahanda namizədlərə qanunvericilik üzrə 40, Azərbaycan dili üzrə 15, informasiya texnologiyaları üzrə 15, məntiqi təfəkkürün yoxlanılması üzrə 30 sual olmaqla, ümumilikdə, 100 sual təqdim edilib. Nəticələr Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın rəsmi internet portalında *(www.dqmk.nmr.az)* yerləşdirilib.

Müsabiqəyə çıxarılan vakant vəzifələrin tutulması üçün 20 namizədə sənəd təqdim olunub, onlardan 19-u test imtahanında iştirak edib. Müvafiq keçid balını toplamış 7 nəfər müsahibə mərhələsində iştirak hüququ qazanıb. Test imtahanında müvəffəqiyyət qazanmış namizədlər nəticələr elan edildiyi gündən 10 iş günü müddətində Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın internet portalı vasitəsilə qeydiyyatdan keçməlidirlər.

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın mətbuat xidməti***

## Beynəlxalq əməkdaşlıq əlaqələri genişlənir

***Dünyanın bir sıra qabaqcıl universitetləri ilə əməkdaşlıq edən “Naxçıvan” Universiteti Türkiyənin Muğla Sıtkı Koçman Universiteti ilə əməkdaşlığı genişləndirir.***



Bu məqsədlə Türkiyədə səfərdə olan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, “Naxçıvan” Universitetinin Tədris və tərbiyə işləri üzrə prorektoru, iqtisad üzrə fəlsəfə doktoru Hüseyn Bağırsoylu Muğla Sıtkı Koçman Universitetinin həmtəsisçisi, eyni zamanda Tibb fakültəsinin dekanı, Muğla Sıtkı Koçman Xəstəxanasının baş həkimi, Türk Ortopedi və Travmatoloji Birliyinin sədri, professor Nevres Hürriyet Aydoğan ilə görüş keçirib. Görüşdə beynəlxalq konfransların təşkili, universitetə tələbə cəlbi, təhsilin modernləşməsi və bir çox sahədə danışıqlar aparılıb. “Naxçıvan” Universitetində tələbələr üçün yaradılmış müasir tədris imkanları barəsində məlumat verilib, Azərbaycanda, eləcə də onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında tibb sahəsinin inkişafına göstərilən dövlət qayğısından danışılıb. Sonra qardaş ölkənin ali təhsil ocağının maddi-texniki bazası ilə tanışlıq olub, müəllim və tələbə mübadiləsi üçün ilkin razılıqlar əldə edilib.

Qeyd edək ki, “Naxçıvan” Universiteti dünyanın 51 ali təhsil ocağı ilə əməkdaşlıq edir və bir sıra beynəlxalq layihələrin üzvüdür.

**Seyfur HACIMURADOV**



***Müstəqil Azərbaycanın memarı və qurucusu ümummilli lider Heydər Əliyevin siyasi kursunun layiqli davamçılarından olan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Cəmşid Naxçıvanski Muzeyinin əsaslı təmirdən və yenidənqurmadan sonra rəsmi açılış mərasimində görkəmli sərkərdənin irsinin müstəqillik prizmasından yeni baxışa, geniş və obyektiv tədqiqata ehtiyacı olduğunu söyləyərək, bu barədə muxtar respublikada fəaliyyət göstərən aidiyyəti qurumlara müvafiq tapşırıqlar vermişdir. Bu tarixi əlamətdar hadisədən bir gün sonra Ali Məclisin Sədri fəaliyyətində naxçıvanskilər ailəsinin də mühüm xidmətləri olmuş Araz-Türk Cümhuriyyətinin elmi cəhətdən tədqiq olunması məqsədilə 2019-cu il 24 sentyabr tarixli Sərəncam imzalamış, sərəncama əsasən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Elmin İnkişafı Fondu AMEA Naxçıvan Bölməsi ilə birgə "Araz-Türk Cümhuriyyəti" elmi-tədqiqat qrupu yaratmışdır. Göründüyü kimi, həm Cəmşid xanın, həm də sələflərinin daha dolğun və obyektiv tədqiqi üçün tarixi zərurət yaranmışdır. Biz də bu zərurətdən yola çıxaraq Cəmşid xan haqqında düşüncələrimizi oxucularla bölüşmək istədik.***

# Ölümü ilə ölümsüzləşənlər...

## *Cəmşid Naxçıvanskiyə müstəqillik prizmasından baxış*



Ötən yazılarımızda qeyd etmişdik və bir daha fəxarətlə yazırıq ki, ümummilli lider Heydər Əliyev 1969-cu ildə Azərbaycana birinci dəfə siyasi hakimiyyətə gəldiyi dövrdə Cəmşid Naxçıvanskini tarixin qaranlıq qatlarından çıxarıb Azərbaycan xalqına qaytarmışdır. Ulu öndərin siyasi himayədarlığı ilə ərsəyə gələn, tarixçi-alim Əli Əliyevin müəllifi olduğu Cəmşid Naxçıvanski haqqında ilk elmi məqalə "Azərbaycan gəncləri" qəzetinin 7 yanvar 1971-ci il tarixli nömrəsində nəşr edilir. Daha sonra yeni araşdırmalar, yazılar, müzakirələr... Sonra bizim hamımıza məlum olan, ulu öndərin şəxsən imzaladığı, Cəmşid Naxçıvanski Muzeyinin ekspozisiyasını bəzəyən "SSRİ Silahlı Qüvvələrinin görkəmli nümayəndəsi general-mayor Cəmşid Naxçıvanskinin xatirəsinin əbədiləşdirilməsi haqqında" 1971-ci il 23 iyun tarixli Qərar... Sonra generalın adına küçə, vaxtilə yaşadığı binaya vurulan barelyef, Cəmşid Naxçıvanski adına hərbi məktəb, diviziya komandirinin adını daşıyan gəmi, generalın Vətəni Naxçıvan şəhərində adına məktəb və ata ocağında yaradılan muzey... Ümummilli liderin rəhbərliyi altında həyata keçirilən bu tədbirlər onsuz da, qatı sovet senzurasını aşırdı. Yəni qırmızı xətti daha irəli keçmək olmazdı. Əslində, biz sonra başa düşəcəkdik ki, müdrik siyasətçinin o zaman həyata keçirdiyi layihələr elə gələcək müstəqil Azərbaycan üçün imiş. Dahi rəhbər xəyalında yaşatdığı gələcək Azərbaycanın təməlini, bünövrəsini atırmış...

Qayıdaq Cəmşid Naxçıvanski haqqında düşüncələrimizə... Sovet dövründə Cəmşid xan haqqında yazılan bütün materiallarda Cəmşid Naxçıvanskinin qatı bolşevik olduğu iddia edilir. Bu, belədirmi? Xatırladaq ki, Cəmşid Naxçıvanskinin ulu babaları I Kalbalı xan Naxçıvanın müstəqilliyi uğrunda mübarizə apararaq bu yolda gözlərini qurban vermişdir. Ehsan xan Naxçıvan əhalisinin təhlükəsizliyi, onların ata-baba torpaqlarından köçürülməməsi, yurdlarının boş qalması naminə öz həyatını və ailəsini təhlükə altına qoymaqdan çəkinməmişdir. Yəni Ehsan xan diplomatik bir eyhamla "xalqım yoxsa ailəm də yox, Vətənim yoxsa mən də yoxam" demişdi. Babası general-mayor II Kalbalı xan, atasının əmisi general-leytenant İsmayıl xan Naxçıvanski, atası Cəfərqulu xan, böyük qardaşı III Kalbalı xan, kiçik qardaşı III Ehsan xan, əmisi Rəhim xan, dayısı Kərim xan, əmiuşaqları, dayıoğlanları və digər yaxın qohumları Azərbaycanın və onun ayrılmaz tərkib hissəsi olan doğma Naxçıvanın azadlığı və müstəqilliyi uğrunda polad sinələrini düşmənə sipər etmiş, ana yurdun inkişafı naminə böyük fədakarlıq və əzmkarlıq göstərmişlər. Bu qəhrəman eloğullarımızın həyat hekayələrinin hər biri ayrılıqda bir tarixi romandır. Bu ailənin sonuncu generalı Cəmşid Naxçıvanski soyunu – əslini danıb bir an içində dönüb qatı bolşevik ola bilərdimi? O, bunu edərdimi?.. Cəmşid Naxçıvanski Muzeyində mühafizə olunan sənədlər, foto-materiallar və hətta rəsm əsərləri bunun belə olmadığını bir daha təsdiq edir.





Cəmşid Naxçıvanskinin sovetlər dövründə çəkilmiş fotolarını seyr etdikcə görürük ki, heç birində sərkərdənin üzü gülmür. Onun necə gərgin və qayğılı olması Xalq rəssamı Hüseynqulu Əliyevin, Azərbaycan Respublikasının Əməkdar rəssamı Məmmədəli İsmayılovun əsərlərində də aydın görünür. Bəli, bu qayğı və intizar çiçəklənməkdə olan şura hökuməti üçün deyil, əksinə, müstəqilliyi əlindən alınmış Azərbaycan üçündür. Ailəsinin və doğmalarının ərazi bütövlüyü uğrunda fəda olduqları Naxçıvan üçündür. Neçə-neçə növcavan igidlər kimi, kiçik qardaşı III Ehsan xan da Cəmşidin qucağında can verərkən əmanət etdiyi, uğrunda şəhidlik şərbətini içdiyi Qarabağ, Zəngəzur üçündür...

Generalın istintaq materiallarında onun sovet hökuməti əleyhinə gizli təşkilat yaradaraq ona rəhbərlik etdiyi və ən əsası Avropada fəaliyyət göstərən Azərbaycan Milli Komitəsi ilə sıx əlaqədə olduğu iddia olunur. 97 günlük dindirmələrdən sonra Cəmşid xan zabit şərəfini və təmsil etdiyi xalqın adını uca tutaraq heç kəsin adını çəkmir, sadəcə olaraq, 3 aydan bəri gecə-gündüz davam edən ağır işgəncələrdən qurtulmaq üçün iddianaməni imzalayır.

Xatırladaq ki, bu vaxt Cəmşid Naxçıvanski briqada komandiri idi və general-mayor ali hərbi rütbəsini daşıyırdı. Yəni ona NKVD çinovnikləri heç nə olmadan "Vətən xaini" kimi ağır bir ittiham irəli sürə bilməzdilər.

Bu məqamda bir daha qeyd etmək yerinə düşər ki, sovet dönəmində Cəmşid Naxçıvanskiyə bəraət verilməsi, onun adının əbədiləşdirilməsi üçün ona qarşı irəli sürülən iddiaların tamamilə böhtan olduğunu söyləmək şərt idi. Və Cəmşid xan Kəngərlilər nəslindən yeganə adam idi ki, sovet hökumətinə xidmət etmişdi. Gördüyü bütün işləri zərgər dəqiqliyi ilə hesablayan uzaqgörən böyük siyasi xadim, ümummilli liderimiz bunu da bacardı. Yəni Cəmşid Naxçıvanskiyə bəraət alaraq, onun timsalında bütün Naxçıvanskiləri – Kəngərliləri yenidən xalqına qaytardı.

Əgər Cəmşid Naxçıvanskinin iddianaməsi düz idisə və də nəzərə alsaq ki, təxminən, bu sayaq iddialarla daha əvvəl iki dəfə həbs olunub, dar ağacından son anda qurtulmuşdusa, deməli, xan nəvəsi Cəmşid xan, sahib olduğu hər şeyini – işini, rütbəsini, ailəsini – bütün şüurlu həyatını Azərbaycanın müstəqilliyi uğrunda fəda etməyə söz verib, and içibmiş. Yeri gəlmişkən, sərkərdənin üç dəfə həbs olunması, onun ikisində dar ağacından son andaca qurtulması, şəxsi həyatındakı qaranlıq nüanslar, haqqında danışılan yarıgerçək əfsanələr, gizli kod adları onun professional bir çekist-diplomat olmasının da işartılarını bəlirləyir. Qafqazşünas alim Rudolf İvanov da gizli bir eyhamla qeyd edirdi ki, əgər ruslar Naxçıvanskini güllələməsə idi, Hitler Almaniyası Cəmşidin hərbi-siyasi doktrinasından ehtiyatlanıb SSRİ üzərinə hücum etməyəcəkdi.

Göründüyü kimi, Cəmşid Naxçıvanskinin həyat və fəaliyyəti müəmmalı suallarla doludur. Bu sualları cavablandırmaq ümummilli lider Heydər Əliyevin memarı olduğu, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun böyük diqqət və qayğı ilə yanaşdığı müstəqil Azərbaycanın müstəqil tədqiqatçılarının işidir.

Milli hərb tariximizdə mərdlik və sədaqət rəmzi olan Cəmşid Naxçıvanskinin şərəfli döyüş yolu yeni gələn nəsillərə vətənpərvərlik təlimi aşılayır. Onun əziz xatirəsi Azərbaycan xalqının qəlbində daim yaşayacaqdır.

...Ölüm bir bioloji hadisədir, böyük insanların fiziki məhvi onların yolunu saxlaya bilməz. O yol ki Vətən-millət sevgisindən keçir. O yol ki igidlik, mərdlik, sədaqət doludur. Ölüm qazanmır, ölümü ilə ölümsüzləşən igidlər qazanır!.. Cəmşid kimi, Yusif kimi, Qabil kimi, Mübariz kimi, Polad Həşimov kimi...

*Nə qədər ki Azərbaycan var, Cəmşid Naxçıvanskinin şərəfli döyüş yolunu davam etdirəcək sərkərdələr də olacaq! Doğulacaq, böyüyəcək, yetişəcək, ölümü ilə ölümsüzlüyə qovuşacaqlar...*

**Abasət NURİYEV**
***Cəmşid Naxçıvanski Muzeyinin direktoru***

# Hüquqi maarifləndirmə günün tələbidir

***Sual:*** ***Su resurslarının talanması məsuliyyətə səbəb ola bilərmi?***

***Cavab:*** Su obyektlərinin və onların su ehtiyatlarının istifadə edilməsi və mühafizəsi ilə bağlı münasibətlər (su münasibətləri) Azərbaycan Respublikasının su qanunvericiliyi ilə tənzimlənir. Su obyektləri istifadəyə icazə və sudan istifadə müqaviləsi əsasında verilir. Sudan istifadə edənlərin su obyektlərindən səmərəli istifadə etmək, suyun qənaətlə işlədilməsini və su obyektlərindən təyinatına görə istifadə etmək, su təsərrüfatı qurğularını və texniki avadanlığı saz vəziyyətdə saxlamaq, onların iş keyfiyyətini yaxşılaşdırmaq və sudan istifadənin uçotunu aparmaq vəzifələri var.

Azərbaycan Respublikasının inzibati xətalar qanunvericiliyinə əsasən su obyektlərində hidrotexniki və digər qurğuların özbaşına tikilməsinə, su obyektlərinin özbaşına tutulmasına, su obyektlərindən istifadə üzrə lisenziya və ya icazə ilə müəyyən edilmiş şərtlərin pozulmasına görə fiziki şəxslər üç yüz manatdan beş yüz manatadək məbləğdə, vəzifəli şəxslər min beş yüz manatdan iki min manatadək məbləğdə, hüquqi şəxslər üç min manatdan beş min manatadək məbləğdə cərimə edilir. Sudan özbaşına istifadə edilməsinə, yəni sudan istifadə etmə limitlərinə əməl edilməməsinə, su ehtiyatlarından israfçılıqla istifadə edilməsinə, içməli məişət, texniki və tullantı sularının kənara təyinatsız axıdılmasına görə fiziki şəxslər yüz manatdan yüz əlli manatadək məbləğdə, vəzifəli şəxslər səkkiz yüz manatdan min manatadək məbləğdə, hüquqi şəxslər iki min manatdan üç min manatadək məbləğdə cərimə edilir.

Həmçinin cinayət qanunvericiliyinə əsasən su təchizatı şəbəkələrinə qanunsuz qoşulmaqla bu resursların talanması ilə bağlı cərimə, müəyyən müddətə islah işləri və azadlığın məhdudlaşdırılması üzrə cəzalar nəzərdə tutulub.

***Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və informasiya şöbəsi***

# Yarımfinala yüksələn komandalar məlum olub

Azərbaycan Futbol Federasiyaları Assosiasiyası, Azərbaycan Çimərlik Futbolu Federasiyası, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və Naxçıvan Futbol Federasiyasının birgə təşkilatçılığı, "Arazbet"in baş sponsorluğu ilə keçirilən çimərlik futbolu üzrə muxtar respublika çempionatında 1/4 final mərhələsinə yekun vurulub.



Dünən bu mərhələdə sonuncu görüş keçirilib. "Naxçıvan Dövlət Universiteti" komandası "Aralıq" komandası ilə üz-üzə gəlib. İlk iki hissəsi gərgin keçən görüşün taleyinə son 12 dəqiqədə aydınlıq gəlib. Belə ki, tələbələr oyunun gedişatında dönüş yaradaraq meydanı 4:2 hesablı qələbə ilə tərk ediblər.

Bu nəticələrdən sonra yarımfinala yüksələn komandalar məlum olub. Finala gedən yolda azarkeşlər "Şahinlər"-"Badamlı" və "Panter"-"NDU" oyununa şahidlik edəcəklər.

✍ **Ceyhun MƏMMƏDOV**

***İtmişdir***

Şərur rayon Maxta kənd sakini Əzizov Məmmədsalah İsa oğlunun adına olan JN-184 inventar nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
**Baş redaktor:**
**MEHRİBAN SULTANOVA**

**Ünvan:** ***AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.***
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

***Nömrəyə məsul:*** **Ceyhun Məmmədov**
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*
**Tiraj: 1500. Sifariş № 628**